## АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА АПШЕРОНЕ И ИХ ПРЕДВАРИТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ

***Бабаев Алибаба Гусейнкулу***

***Резюме***

Оборонительные крепости на Апшеронском полуострове были в основном реликвиями веков. Построенные на Апшероне крепости ( Мардакан, Нардаран, Рамана, Бильгях и др) являлись составными частями единой системы обороны и выполняли роль укрытии и сторожевых постов. Если противник захватывал один из фортов, расположенных вдоль побережья, то серьезное сопротивление оказывалось в оборонительных сооружениях в селах Маштага, Забрат, Гала, Рамана в глубине полуострова. По подсчетам исследователей, таких оборонительных сооружений на Апшеронском полуострове было более 30. Если посмотреть на карту Апшеронского полуострова, то можно увидеть последовательность соединения береговых оборонительных сооружений с точками в глубине полуострова.

## ARCHAEOLOGICAL STUDIES IN ABSHERON AND THEIR PRELIMINARY RESULTS

***Babayev Alibaba Huseyngulu***

***Summary***

Defense fortresses on the Absheron peninsula were mainly relics of the 13th-14th centuries. The fortresses built in Absheron (Mardakan, Nardaran, Ramana, Bilgah etc.) were integral parts of the unified defense system and played the role of shelters and guard posts. The construction of Absheron fortresses along the northeastern coast was due to the expectation of danger from that direction. It the enemy captured one of the forts located along the coast, then there was serious resistance in the defensive structures in the villages of Mashtaga, Zabrat, Gala, and Ramana in the interior of the peninsula. According to researchers calculations, there were more than 30 such defense structures on the Absheron peninsula. If we look at the map of the Absheron peninsula, we can see the connection of coastal defense structures with the points in the interior of the peninsula.

***Rəyçilər: T.ü.f.d.dos., Elmira Cəfərova, T.e.f.d.dos., Taleh Əliyev***
***AMEA, Azərbaycanın orta əsrlər dövrü arxeologiyası şöbəsinin 30.09.2022 tarixli iclasın 09 saylı prot***
***Daxil olduğu tarix 14 oktyabr 2022-ci il***

**UOT: 9(4794)**

## ARRAN MEMARLIĞININ MƏRKƏZİ ŞƏHƏRİNDƏ SƏNƏTİN İNKİŞAFINA DAİR

***Əhmədova Türkan Yusif qızı***
***Lənkəran Dövlət Universitetinin doktorantı***
***ORCID ID: https://orcid.org/0000-0002-9797-2716***
***turkan_ahm@mail.ru***

**Xülasə:** *Gəncə şəhəri tarixi əhəmiyyətinə görə Azərbaycanın ikinci böyük şəhəri, ölkənin qərbində yer alan böyük sənaye və mədəniyyət mərkəzidir. Şəhər haqqında ərəb, fars, gürcü, rus və orta əsr Avropa müəlliflərinin əsərlərində rast gəlinir. Gəncə Azərbaycanın digər şəhərləri kimi əlverişli coğrafi mövqeyə, gözəl mənzərəyə sahib olan yaşayış məskəni olub tədricən şəhər kimi formalaşmışdır. X əsrin ortalarından şəhər iri siyasi, iqtisadi və mədəni mərkəzə çevrildi. Gəncənin siyasi mərkəzə çevrilməsi şəhərin iqtisadi həyatına da*

*güclü təsir etdi. Atabəylər dövlətinin hakimiyyəti zamanı şəhərdə tikinti daha da genişləndi, Gəncə Arranın paytaxtına çevrildi. X-XI əsrlərdə Gəncə Arran memarlıq məktəbinin mərkəzlərindən biri idi. Bu memarlıq məktəbinin öyrənilməsində Gəncədə aparılan arxeoloji tədqiqatlar mühüm rol oynayır.*

**Açar sözlər:** inşaat texnikası, istehkamlar, arxeoloji qazıntılar, qəbir abidələri, müdafiə sistemi, memarlıq məktəbi.

**Keywords:** construction equipment, fortifications, archaeological excavations, grave monuments, defense system, school of architecture.

**Ключевые слова:** строительная техника, фортификационные сооружения, археологические раскопки, могильные памятники, система обороны, архитектурная школа.

Orta əsr Azərbaycan şəhərləri Şərq memarlıq üslubunda olan karvansaralar, qəsrlər, məscidlər, minarələr, ictimai və dini binalar, yaşayış evlərindən və s. ibarət olan sıx tikintilərə malik idi. IX-X əsrlərə aid tikinti qalıqları şəhərlərin memarlıq və inşaat texnikasını araşdırmağa şərait yaradır.

Şamaxı, Bakı, Dərbənd, Qəbələ, Gəncə, Şəmkir, Beyləqan, Dəbil, Xaraba-Gilan və başqa şəhərlərdə aparılan qazıntılar şəhristanda, xüsusilə XI-XII əsrlərdə tikintilərin çoxluğundan, onların sıx yerləşməsindən xəbər verir.

Gəncə ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, burada mədəni təbəqələrin qalınlığı 3-5 m-ə çatır. Bu təbəqələrdə şəhərin qədim və orta əsrlər tarixini öyrənmək üçün zəngin arxeoloji materiallar vardır. Şəhərin bir çox qiymətli memarlıq abidələri və tikililəri olmuşdur ki, onlardan az bir qismi bizə gəlib çatmışdır.

Gəncə şəhərinin mədəniyyətinin öyrənilməsində maddi və yazılı mənbələrin böyük rolu var. Yazılı mənbələrin məlumatına görə XI-XII əsrlərdə Gəncədə təmtəraqlı saraylar, örtülü bazarlar, tacir və əyanların yaraşıqlı evləri var idi.

XII-XIII əsrlərdə Gəncə çox möhtəşəm istehkamlara, memarlıq abidələrinə malik bir şəhər olmuşdur. Bu istehkamların şəhərin xarici basqınlardan müdafiə olunmasında xüsusi əhəmiyyəti var idi. 1221-ci ildə monqollar Gəncəyə hücum etsələr də, buradakı istehkamlar və cəsur əhali şəhəri düşmən basqınından xilas edə bilmişdir.

Gəncə şəhəri ətrafındakı abidələrin, xüsusilə qəbir abidələrinin öyrənilməsi baxımından Y.Hummelin “Arxeoloji oçerklər” adlı əsərinin rolu da ayrıca qeyd edilməlidir. [2; səh-9]

Gəncə X əsrin ortalarında Salarilərin hakimiyyəti altında, daha sonra isə Şəddadilərin paytaxtı olmuşdur.

I Fəzlunun (895-1030) hökmranlığı dövründə Gəncə ən güclü dövrlərini yaşamışdır. Şəddadilər dövründə qala, saraylar, körpülər və karvansaraylar inşa edilmiş və burada pul kəsilməyə başlanmışdır. Şəhəri əhatə edən yeni və daha davamlı qala inşa edildi. 1063-cü ildə dəmirçi İbrahim məşhur Gəncə darvazalarını tikdi. [6]

Gəncə şəhərindən 6 kilometr şimal - qərbdə köhnə Gəncənin qala divarları, saraylar, daşdan, bişmiş və çiy kərpicdən tikilmiş bina qalıqları vardır. Bu xarabalar XII əsrə aiddir. Gəncədə IX əsrə aid olan Comərd Qəssab türbəsi 2004-cü ildə bərpa edilmişdir. Eyni zamanda, qədim şəhərin atributlarından olan qala divarları, Nizami Gəncəvinin türbəsi, xalqın mifoloji təfəkkürünü canlandıran «Şir və Günəş» abidəsi, «Ay ulduz» kompleksi, «Gəncənin gerbi», «Gəncə darvazaları» və s. kimi tarixi yadigarlar qurulub gələcək nəsillərin ərməğanına çevrilmişdir. [7;səh-55]

Gəncə memarlığında üstünlük təşkil edən elementlərdən ən qədimi möhrə inşaat texnikasıdır. Möhrə inşaat texnikası çiy kərpicin ixtirasına qədər və onunla paralel surətdə

uzun müddət davam etmişdir. Şəhərin sahillərini bir-biri ilə birləşdirən çatmatağlı nəhəng körpülər isə ağ daşdan və çınqıldan tikilirdi. Gəncədə bişmiş kərpic istehsalı da geniş vüsət almışdır. Tikililərin divarları hər iki tərəfdən ağ torpaq və saman qarışıq palçıqla suvanıb. Gəncə yaxınlığında gəc yataqlarının olması, tikintidə gəcdən istifadə üçün böyük imkanlar yaradırdı.

Əslən Gəncəli olan arxeoloq-alim İsaq Cəfərzadə 1938-40 – cı illərdə qədim şəhərin ərazisində geniş miqyaslı qazıntı işi aparıb. Zəngin materialları diqqətlə araşdıraraq ilk dəfə olaraq qədim Gəncənin hüdudlarını müəyyən edib. Şəhərin plan-xəritəsini çəkib. Memarlıq quruluşunu, hörgü sistemini öyrənib, üç körpünün yerini dəqiqləşdirib. [3; səh-16]

Görkəmli ərəb səyyahı Abdullah ər-Rumi əl-Həməvinin (1179-1229) "Mucəm əl-buldan " (Ölkələrin əlifba sırası ilə siyahısı) adlı coğrafi lüğəti Arranı öyrənmək üçün əhəmiyyətli mənbədir.

"Mucəm əl-buldan" böyük kompilyativ əsərdir. Burada çoxu bizə gəlib çatmayan yüzdən artıq ilk mənbədən istifadə edilmişdir. Yaqut Azərbaycan və Arran tarixinə dair məlumatında əl-İstəxri, ibn əl- Fəqih və bir çox başqa müəlliflərin əsərlərindən material verir. Özü də demək olar ki, hər yerdə hansı mənbədən istifadə etdiyini göstərir və başqa əsərlərdən götürdüyü materialı öz səyahətləri zamanı topladığı məlumatla tamamlayır. O öz materialını müvafiq ölkə, vilayət, şəhər və kəndlərin adlarına uyğun əlifba sırası ilə sistemə salmışdır. Yaqutun lüğətinin xüsusiyyəti burasındadır ki, müntəzəm olaraq, gətirdiyi coğrafi adların dürüst tələffüzünü müəyyən edir və beləliklə, toponimika cəhətdən düzgün nəticələr çıxarmağa imkan verir. [10; səh-30]

Orta əsrlərdə Azərbaycanın xalq yaradıcılığı həm arxitektura və bədii sənət, həm də poeziya və ədəbiyyat üzrə yüksək inkişaf eləmişdi. XI-XIII əsrlərdə sənət yalnız Zaqafqaziya ölkələrində deyil, həm də ön Şərqin hər yerində çiçəklənmişdi. Şərq isə o vaxt qərbdən çox yüksəkdə dururdu. Mədəniyyət inciləri bizə o vaxtın azərbaycanlı ustalarının əsas sənət növlərindən söhbət açmağa imkan verir. [1; səh-24]

Gəncə şəhərinin orta əsr müdafiə sistemində mühafizə qurğuları, istehkamlar çox vacib yer tutur. Bu günədək qalmış tikililər tarixşünaslıqda nisbətən yaxşı öyrənilib. Lakin adlarına təkcə mənbələrdə rast gəlinən istehkamlar zəif tədqiq edilib. XIII əsrdə (1213 və 1220-ci illərdə) iki dəfə Azərbaycana səyahət etmiş ərəb tarixçisi, səyyah Yaqut əl-Həməvi Gəncəni Arranın ən qədim istehkamlarından biri kimi adlandırmışdır. Onun "Ölkələr haqqında lüğət"ində Azərbaycan şəhərləri haqqında dəyərli məlumatlar yer alıb.

Gülüstan qalası Şərqi Gəncəbasarın müdafiə istehkamları içərisində olduqca əhəmiyyətə malikdir. Qala Murovdağın ətəyində, Şərqi Gəncəbasar ərazisindəki Goranboy rayonunun tərkibində, dəniz səviyyəsindən 1700 m yüksəklikdə yaylada yerləşir.

Şəhər mədəniyyətinin öyrənilməsində yaşayış yerləri ilə yanaşı qəbir abidələrində aparılan arxeoloji qazıntılar da xüsusi rol oynayır. Bunlar içərisində kurqanlar, küp qəbirləri, torpaq qəbirləri Şərqi Gəncəbasarda kifayət qədərdir.

Dəfələrlə Azərbaycanda olmuş böyük türk səyyahı, coğrafiyaşünas Evliya Çələbi öz səyahətnaməsinə yurdumuzun iqtisadi həyatı, yaşayış məntəqələri, tarixi, xalqımızın adət-ənənələri, abidələrimiz haqqında olduqca maraqlı məlumatlar daxil etmişdi.

Səfəvi–Osmanlı müharibələri zamanı dəfələrlə əldən-ələ keçmiş qədim Gəncə bu zaman tənəzzülə uğramışdı. Lakin bununla belə, səyyahın yazdığına görə, altı min ev, çoxlu imarət, cərgə-cərgə dükanlar, abad bazar, hamamlar, çoxlu məscid və b. memarlıq abidələri olan «şəhər çoxlu bağları və üzümlükləri olan bir düzdə yerləşirdi». Evliya Çələbi yazır: «Gəncənin ipəyi hər yerdə məşhurdur». [5; səh-262]

Gəncə şəhəri haqqında ətraflı və daha dəqiq məlumatları tədqiqatçı Arif Məmmədovun "Gəncəbasar IV-XIII əsrlərdə (tarixi arxeoloji tədqiqat)", "Gəncə və onun ətrafının tarixi arxeoloji tədqiqi (ən qədim zamanlardan XIX əsrə qədər)", "Qədim Gəncə (tarixi arxeoloji tədqiqat)" kitablarından əldə etmək olar.

**Ədəbiyyat**

1. Altman M.M., Gəncə şəhərinin tarixi oçerki, Tovuz, 1991, 63 səh
2. Məmmədov A. Gəncəbasar IV-XIII əsrlərdə (tarixi-arxeoloji təd.) , Bakı-1992-Elm, 205 s.
3. İsayev Ə. Gəncə və gəncəlilər (roman-xronika), Bakı,2008, 596 səh.
4. Əhmədov F. Gəncənin tarix yaddaşı, Bakı, 1998, 196 səh.
5. Mahmudlu Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: 2012, 296 səh.
6. Mövqe qəzeti, 25-26 avqust 2011-ci il.
7. Dostiyev T. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri), Bakı,2016, 200 səh.
8. Yusifov M. "Azərbaycançılıq", Elm və Təhsil, Bakı, 2010, 132 səh.
9. Bünyadov Z. Azərbaycan Atabəyləri dövləti (1136-1225-ci illər), Bakı, 2007, 312 səh.
10. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə, Bakı, "Şərq-Qərb", 2007, 424 səh.

## О РАЗВИТИИ ИСКУССТВА АРХИТЕКТУРЫ АРРАН В ЦЕНТРЕ ГОРОДА

***Ахмедова Тюркан Юсиф кызы***

***Резюме***

Гянджа является вторым по величине городом Азербайджана по своему историческому значению и крупнейшим центром на западе страны. Этот город встречается в произведениях арабских, персидских, грузино-русских и средневековых европейских авторов. Гянджа, как и другие города Азербайджана, имеет выгодное географическое положение с прекрасными видами, постепенно формируя город.

С середины X века город стал крупным политическим, экономическим и культурным центром. Превращение Гянджи в политический центр оказало значительное влияние на экономическую жизнь города. В период правления государства Атабеков строительство в городе было расширено, в результате чего Гянджа стала столицей Аррана. В X-XI веках Гянджа была одним из центров Арранской архитектурной школы. Археологические исследования в Гяндже играют важную роль в изучении этой архитектурной школы.

## ON THE DEVELOPMENT OF THE ARRAN ARCHITECTURE ART IN THE CITY DOWNTOWN

***Ahmadova Turkan Yusif***

***Summary***

Ganja is the second largest city in Azerbaijan in its historical significance and the largest center in the west of the country. This city is found in the works of Arab, Persian, Georgian Russian, and medieval European authors. Ganja like other cities of Azerbaijan, has an advantageous geographical position with beautiful views, gradually forming a city.

Since the middle of the 10th century, the city has become a major political, economic and cultural center. The transformation of Ganja into a political center had a significant impact on the economic life of the city. During the reign of the state of Atabey, construction in the city was expanded, as a result of Ganja becoming the capital of Arran. In the X-XI centuries, Ganja was one of the Arran School of Architecture centers. Archaeological research in Ganja plays an important role in the study of this school of architecture.

***Rəyçi: Dos. S.F.Abdullayeva***
***ADAU-nun 4 noyabr 2022-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 14 noyabr 2022-ci il***

**UOT: 94(479.24).**

# XOCALI SOYQIRIMINA APARAN YOL - QARADAĞLI FACİƏSİ

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
***elminaznamazova@mail.ru***

**Xülasə:** *1989-cu ildən etibarən Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndinin sakinləri erməni işğalçılarına qarşı dörd il qəhrəmanlıqla mübarizə aparmışlar. Bu dövrdə Qaradağlının ətraf erməni kəndləri və rayon mərkəzi ilə əlaqəsi kəsilmiş, işləyənlər işdən qovulmuşdular.*

*1992-ci il fevralın 14-də erməni quldurları xarici muzdluların, xüsusilə, Xankəndində yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə əlaqəsi hər tərəfdən kəsilmiş köməksiz qalan Qaradağlı kəndinə hücuma keçdilər.*

*Kəndə son hücum 1992-ci il fevralın 17-də səhər saat 5:00 radələrində başladı. Kənd uğrunda döyüş on bir saat davam etmiş və Qaradağlı kəndi erməni silahlı dəstələri tərəfindən işğal edilərək yandırılmışdı. Bu hücum zamanı erməni işğalçıları dinc əhaliyə qarşı soyqırımı həyata keçirmişdi. Kənddə olan 118 nəfər əsir götürülmüşdür. Əsir götürülənlərdən əksəriyyəti gənclər olmaqla 33 nəfəri kəndin yaxınlığında vəhşicəsinə güllələnmiş, öldürülənləri və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzərlərini torpaqla örtmüşlər. Əsirlikdən xilas edilənlərin böyük əksəriyyəti əsirlikdə verilən ağır işgəncələrdən, onlara vurulmuş naməlum tərkibli iynələrin təsirindən qısa zamanda vəfat edib.*

*Qaradağlıda törədilən qətliam, kənd sakinlərinə verilən işgəncələr 200 ilə yaxın müddətdə erməni millətçilərinin azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasətinin davamı və Azərbaycan türklərinə bəslədikləri nifrətin nəticəsi idi. Bu nifrət xalqınıza qarşı növbəti daha dəhşətli Xocalı soyqırımının törədilməsinə yol açdı. Xocalı soyqırımı ermənilərin necə vəhşi bir xalq olduğunu bir daha bütün dünyaya sübut etmiş oldu.*

*1992-ci ilin dəhşətli fevral gecəsində Xocalıda törədilmiş qətliamlar elə bir şəkildə həyata keçirilmişdir ki, belə əməlləri insan ağlı nə dərk edə bilər, nə də insan vicdanı onu daşıya bilər. İnsan, Xocalı soyqırımının insan əməli olmasını dərk etməkdə belə acizdir. Bunu yalnız İblis əməli hesab etmək olar.*

**Açar sözlər:** Azərbaycan, Qaradağlı kəndi, Xocalı, soyqırım, terror, faciə, erməni cəlladları

**Ключевые слова:** Азербайджан, село Гарадаглы, Ходжалы, геноцид, террор, трагедия, армянские палачи.

**Keywords:** Azerbaijan, Garadagli village, Khojaly, genocide, terror, tragedy, Armenian executioners

Tarix boyu türklərə qarşı soyqırımı həyata keçirməkdən çəkinməyən ermənilər XX əsrin sonlarında bütün bəşəriyyətə və insanlığa ləkə olan növbəti cinayəti-Qaradağlı soyqırımını həyata keçirdilər.

Qaradağlı faciəsi ermənilərin xəstə təfəkkürdən doğan niyyətlərinə çatmaq üçün Azərbaycan xalqına qarşı həyata keçirdikləri soyqırımı siyasətinin ən qanlı səhifələrindən biridir.[ 1]

Qaradağlı faciəsinin qurbanı İslam Dadaşov bildirirdi ki,1988-ci ildən sonra Qarabağ və ətraf rayonlarda yaşayan sakinlərin evində olan silahlar zorla yığılır, kəndlilər məqsədli